# REAL İQTİSADİYYATIN İNNOVATİV İNKİŞAFI YENİ MƏRHƏLƏDƏ

**Azərbaycanın bütün bölgələrində quruculuq, abadlıq işlərinin sürəti azalmır. Regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının uğurla icrası bu prosesi daha da yüksək mərhələyə çatdırıb. Nəticədə Azərbaycanın bütün bölgələri hərtərəfli inkişaf edir. Öz müstəqilliyini cəmi 24 il əvvəl bərpa etmiş dövlətin neft sektorunun inkişafından gələn gəlirləri qeyri-neft sektoruna yönəltməsi çox böyük nailiyyətlərlə nəticələnmişdir.**

Real sektorun prioritet elan edilməsi nəticəsində bu sahədə inkişaf tempi çox yüksəkdir. Regionların inkişafı üçün yeni infrastruktur layihələrinin həyata keçirilməsi fəal şəkildə davam etdirilir. Əldə edilən nailiyyətlər ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun bəhrəsidir. Azərbaycan öz Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderin siyasi xəttinə sadiqliyi sayəsində hər il inkişafın yeni, daha yüksək mərhələsinə qədəm qoyur. Azərbaycan Prezidenti qeyri-neft sektorunun inkişafının sürətinin davamlı surətdə artması, müasir səviyyədə olması üçün bu istiqamətə daha çox sərmayə yönəldildiyi barədə demişdir: "Bu gün daha çox qeyri-neft sektoruna vəsait qoyulur. Əlbəttə ki, biz bunu alqışlayırıq. Ölkəmizdə yaradılan investisiya mühiti çox müsbətdir. Adambaşına düşən xarici sərmayə qoyuluşuna görə Azərbaycan MDB məkanında ön sıralardadır". İqtisadiyyatın çoxşaxəli inkişafı, sənayenin genişlənməsi, istehsal etdiyi məhsulların beynəlxalq standartlara cavab verməsi güclü ixrac potensialının yaranmasını təmin edir.

Azərbaycan iqtisadi modelinin əsas pozitiv xarakterik xüsusiyyətləri odur ki, dünyada gedən makro və mikroiqtisadi proseslərin inkişaf meyilləri, onun mahiyyəti ölkənin iqtisadi potensialı və dünya bazarlarının təklif və tələbatı nəzərə alınıb. Diqqətəlayiq və önəmlisi odur ki, bu prosesdə ümummilli məqsəd və mənafelər ön mövqededir. Buna görə də öz müstəqilliyini bərpa etmiş, iqtisadiyyatını ən qısa zamanda dirçəltmiş, çoxşaxəliliyinə nail olmuş Azərbaycan beynəlxalq maliyyə və iqtisadi böhrandan zərər çəkməmiş, əksinə, geniş inkişaf yoluna çıxmışdır. Düşünülmüş siyasətlə aparılan islahatların bir-birini tamamlaması nəticəsində Azərbaycanda inkişaf dünyada ən sürətli və yüksək templidir. Dövlətin yürütdüyü siyasət və aparılan islahatlar, reallaşdırılan layihələr beynəlxalq qurumların da diqqət mərkəzindədir. Azərbaycan Prezidenti İlham Əliyev düşünülmüş siyasətlə davamlı surətdə aparılan islahatların nəticələrinin dünyanın mötəbər qurumlarının da diqqət mərkəzində olduğu barədə demişdir: "Deyə bilərəm ki, Azərbaycanda aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Biz bir pillə irəli getdik və dünya miqyasında bu göstəriciyə görə 38-ci yerdə olmaq tarixi nailiyyətdir. Yəni bir sözlə, biz dünyanın ən rəqabətqabiliyyətli 40 ölkəsinin sırasındayıq".

Beləliklə, ölkədə hərtərəfli inkişafın təməlində müasir, rəqabətedavamlı iqtisadiyyat dayanır. İqtisadiyyatın davamlı innovativ çoxşaxəli inkişafı dünyada daha çox diqqəti cəlb etməkdədir. Məsələn, "İteca Caspian" və "Caspian Event orqanizer" (CEO) şirkətləri bu ilin sonuna qədər Bakıda 11 beynəlxalq sərgi keçirməyə qərar vermişlər. Bütün sərgilər Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna həsr ediləcəkdir.

Dövlətin iqtisadi qüdrətinin davamlı surətdə artırılması üçün mövcud potensial aşkara çıxarılır və müasir layihələr hazırlanaraq elmi-praktiki baxımdan həyata keçirilir. Davam edən bu dinamik inkişaf ölkəyə olan investor marağını də daim artırır. Son illər investisiya yatırımlarına görə daha çox cəlbedici ölkə kimi Azərbaycan ön mövqelərdədir. Hazırda Azərbaycanda "yaşıl" iqtisadiyyatın inkişafı diqqət mərkəzindədir. Bu mövzular bu il avqust ayının 25-də "Milan Expo 2015" beynəlxalq sərgisi çərçivəsində "Azərbaycan investisiya yatırımları: biznes mühiti və imkanlar" mövzusunda keçirilmiş tədbirdə müzakirə olunub. Azərbaycanda çox müsbət hüquqi və mənəvi sərmayə iqlimi vardır, yerli və xarici investorlar bizim ölkəmizə inanırlar. Buna görə də Azərbaycana çox böyük investisiyalar qoyulması davam edir. Bu yaxınlarda Meksika Konqresində Azərbaycan ilə əməkdaşlığın inkişafına dair qətnamə qəbul olunub. Sənəddə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu və Qafqazın ən strateji ölkələrindən biri olduğu vurğulanıb. Qətnamədə neftin hasilatı, emalı sahəsində 150 illik təcrübə və qeyri-neft sektorunda qısa müddətdə əldə edilən nailiyyətlər diqqətə çatdırılıb, müxtəlif sahələrə beynəlxalq yatırımlar edildiyi bildirilib və iki ölkə arasında münasibətlərin gücləndirilməsinin zəruri olduğu çağırışları edilib. Əgər nəzər yetirsək görərik ki, dünyanın



əksər ölkələrində xarici investisiyaları cəlb etmək üçün çox böyük işlər aparılır, dövlətlər arasında güclü rəqabət gedir. Çünki hər bir ölkənin iqtisadi inkişafında investisiyalar müəyyənedici rol oynayır.

Azərbaycan həm hasilatçı, həm də istehsalçı olduğuna görə iqtisadiyyatın şaxeliliyinə nail olaraq neftdən asılılığı aradan əsasən qaldırıb və real iqtisadiyyatın gəlirliyi, rəqabətqabiliyyətliliyi, dayanıqlığı və dinamizmi təmin edilir. Ölkə rəhbərliyi bu hədəfə uğurla nail olur. 2014-cü ilin 7 ayı ilə müqayisədə qeyri-neft sektorunda bu ilin həmin dövründə 9 faiz, neft-qaz sektorunda isə 1 faiz artıma nail olunmuşdur.

Qüdrətli sənayeyə sahib olmaq dövlətin gücünün əsaslarındandır, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 2015-ci ilin yeddi ayında 15,8 milyard manatlıq məhsul istehsal edilmişdir. Bu rəqəm ötən ilin eyni dövründəki göstəricilərdən 3,5 faiz çoxdur, sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 14,7 faiz, neft-qaz sektorunda isə 0,1 faiz artmışdır. Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Biz Azərbaycan xalqının güclü iradəsi və cəsarəti ilə ölkəmizi dəyişdirə bildik və gələcək üçün planlarımız tam aydın oldu. Artıq qeyd etdiyim kimi, siyasi sistem quruldu və iqtisadi islahatlar həyata keçirilməyə başlandı. Bu islahatlar davam edir və edəcəkdir. Biz iqtisadiyyatımızın şaxələndirilməsinə nail ola bildik və möhkəm iqtisadi əsaslar yaratdıq".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**